**Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzinin
2023-cü il üzrə fəaliyyətinə dair**

# HESABATI

Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 19 may tarixli 1685 nömrəli Fərmanı ilə yaradılmış Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzi (bundan sonra - Mərkəz) 2023-cü ildə Nizamnaməsinə müvafiq olaraq normayaratma fəaliyyətinin keyfiyyətinin yüksəldilməsi, dövlət orqanları (qurumları) əməkdaşlarının hüquq normalarının tətbiqi sahəsində bilik, bacarıq və səriştələrinin inkişaf etdirilməsi, hüquqi maarifləndirmə, hüquqi ekspertizanın aparılması və bunlarla bağlı işlərin səmərəli əlaqələndirilməsi sahəsində fəaliyyətini uğurla davam etdirmişdir.

*Mərkəzin fəaliyyətinin təşkili üzrə*

Mərkəzin səmərəli fəaliyyəti üçün normayaratma sahəsi üzrə yüksək ixtisaslı mütəxəssislərin cəlb edilməsi zərurəti nəzərə alınaraq, hesabat dövrü ərzində Mərkəzə vakant vəzifələr üzrə işə qəbul həyata keçirilmişdir. Belə ki, Mərkəzin İcraçı direktorunun müavini vakansiyasının, habelə Mərkəzin şöbələrində mövcud olan vakant vəzifələrin komplektləşdirilməsi həyata keçirilmiş və müvafiq təyinatlar olmuşdur. Həmçinin, Mərkəzin fəaliyyətinin daha da səmərəli təşkili məqsədilə işçilərin say həddi 5 vahid artırılmış və Mərkəzdə yeni vəzifələr (İT mütəxəssisi, satınalmalar üzrə mütəxəssis, təsərrüfat işləri üzrə mütəxəssis, İcraçı direktorun köməkçisi və sürücü) yaradılmışdır.




* Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi

Mərkəzin fəaliyyətinin effektiv həyata keçirilməsi məqsədilə şöbələrin əsasnamələri və işçilərin vəzifə təlimatları, “Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzində hüquqi maarifləndirmə işinin aparılması ilə bağlı 2023-cü il üzrə Tədbirlər Planı”, “Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzinin “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə üzrə Daxili nəzarət proqramı”, “Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzinin əmlakının qorunub saxlanılması Qaydaları” və bir sıra digər daxili sənədlər təsdiq edilmişdir.

Hesabat dövründə Mərkəzin yeni inzibati binaya köçürülməsi təmin olunmuş, bununla əlaqədar Mərkəz “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq keçirilmiş müsabiqə ilə ofis mebelləri və digər zəruri əşyalarla təchiz edilmişdir.

Bundan başqa, fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını təmin etmək məqsədilə Mərkəzin rəsmi internet səhifəsi (www.heqt.gov.az) istifadəyə verilmiş, müvafiq sosial şəbəkələrdə (Facebook və Linkedin) hesabları açılmışdır.




Qeyd edilənlərlə yanaşı, Mərkəzdə elektron sənəd dövriyyəsinin təşkili, bununla da, sənədləşmə və sənədlərlə işin təşkili məsələlərində mobilliyə, çevikliyə və optimallığa nail olunması məqsədilə Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinə müraciət edilmiş, həmin qurum tərəfindən Mərkəz və Mərkəzin tabeliyindəki Hüquq və İnsan Haqları İnstitutu üçün elektron sənəd dövriyyəsi sistemində qurumların seqmentinin yaradıldığı, struktur cədvəlinin yığıldığı və təqdim edilmiş siyahı üzrə istifadəçi profillərinin hazırlandığı bildirilmiş və bundan sonra 31 may və 8 iyun tarixlərində Mərkəzin və İnstitutun əməkdaşları üçün elektron sənəd dövriyyəsinin təşkili və tətbiqi, sənədlərin hazırlanması və rəsmiləşdirilməsinə dair tələblər, sənədlərin qeydə alınması və məlumat aparatının quruluşu, sənədlərin icrasına nəzarətin təşkili, işlərin nomenklaturunun tərtib edilməsi, qovluqların formalaşdırılması, habelə elektron sənədlərlə bağlı kargüzarlığın aparılmasının digər xüsusiyyətləri barədə onlayn təlim keçirilmişdir. Hazırda həmin Sistemin Mərkəzdə və İnstitutda tətbiqi üzrə işlər davam etdirilir.

Həmçinin, Mərkəzin fəaliyyətinin təmin edilməsi məqsədilə bir sıra proqram təminatlarının, o cümlədən büdcədən maliyyə dəstəyi alan təşkilatlar maliyyə və mühasibat uçotu hesabatlarının qəbul olunmuş standartlara uyğun tərtib edilməsini təmin edən “SİNAM Müəssisə Resurslarının İdarə edilməsi” avtomatlaşdırılmış sistemə çıxışın əldə edilməsi təmin edilmişdir.

Bundan əlavə, Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli “Dövlət orqanlarında (qurumlarında) normayaratma fəaliyyətinin təkmilləşdirilməsi və bundan irəli gələn bir sıra məsələlərin tənzimlənməsi haqqında” Fərmanının icrası ilə əlaqədar olaraq Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tərəfindən “Normativ hüquqi aktlar” informasiya sistemində Mərkəz üçün elektron kabinet yaradılmışdır.

Eyni zamanda, hesabat dövrü ərzində Mərkəzin fəaliyyətinin təkmilləşdirilməsi ilə əlaqədar onun fəaliyyətini tənzimləyən normativ hüquqi aktların təhlili aparılmış və müvafiq dəyişikliklərin edilməsinə dair təkliflər hazırlanaraq aidiyyəti üzrə təqdim edilmişdir.

*Hüquqi ekspertiza və hüquqi aktların hazırlanması sahəsində görülmüş işlər üzrə*

Hesabat dövrü ərzində Mərkəzin işçi heyəti Nizamnaməsi ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq vəzifələrinin icrasını davam etdirmiş, normativ hüquqi aktların layihələrinin hazırlanması və hüquqi ekspertizasının aparılmasında iştirak etmişdir. Aparılmış hüquqi ekspertiza çərçivəsində Mərkəzə təqdim edilmiş müxtəlif hüquqi aktların layihələrinin “Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanununa uyğunlaşdırılması, habelə qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla təkmilləşdirilməsi məqsədi ilə rəylərin verilməsi təmin olunmuşdur.

Belə ki, sağlam rəqabət mühitinin təmin edilməsini, azad sahibkarlığın dəstəklənməsini hədəfləyən “Azərbaycan Respublikasının Rəqabət Məcəlləsi”nin layihəsinin təkmilləşdirilməsi üzrə işlər davam etdirilərək layihənin hüquqi tənzimləmə təsirinin qiymətləndirilməsi üzrə işlər görülmüş, layihə ilə ölkə qanunvericiliyinə daxil edilməsi nəzərdə tutulan hüquqi yeniliklər müfəssəl qaydada təhlil edilmiş və aidiyyəti dövlət orqanları ilə müzakirə edilərək layihənin müvafiq müddəalarının məzmununun dəqiqləşdirilməsi təmin edilmişdir. Eyni zamanda, həmin Məcəllənin tətbiqi barədə fərman layihəsinin hüquqi ekspertizası aparılmışdır. Azərbaycan Respublikasının Rəqabət Məcəlləsi Milli Məclisdə üçüncü oxunuşda qəbul edilmişdir.

Həmçinin, hesabat dövründə Azərbaycan Respublikası Mülki Məcəlləsinin sahibkarlıq fəaliyyəti ilə bağlı müddəalarını *(“Borc” fəsli və əlaqəli müddəaları)* yeni redaksiyada verən layihə üzərində hüquqi təkmilləşdirmə işləri davam etdirilmişdir. Mərkəz həmin layihənin yenilənmiş mətninin hüquqi ekspertizasının aparılmasında və aidiyyəti dövlət orqanları (qurumları) ilə müzakirəsində yaxından iştirak etmişdir. Mərkəz tərəfindən sözügedən layihə ilə bağlı qanunvericilikdəki mövcud problemlər araşdırılmış və müxtəlif inkişaf etmiş dövlətlərin qabaqcıl təcrübəsi nəzərə alınmaqla layihənin təkmilləşdirilməsinə dair çoxsaylı təkliflər verilmişdir. Nəticədə 24.02.2023-cü il tarixli 822-VIQD nömrəli “Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Qanunu qəbul edilərək “Borc” fəsli yeni redaksiyada verilmişdir.

Qeyd edilənlərlə yanaşı Mərkəz tərəfindən publik və xüsusi hüquq sahələri üzrə bir sıra digər normativ hüquqi aktların hüquqi ekspertizası aparılmışdır.

**Qanun**

- “Biznes palataları haqqında” AR Qanun layihəsi
- “Arbitraj haqqında” AR Qanun layihəsi
- “Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında” AR Qanun layihəsi
- “Xaricdə yaşayan soydaşlar və diaspor təşkilatları haqqında” AR Qanun layihəsi
- Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi barədə
- “Banklar haqqında” AR Qanununda dəyişiklik edilməsi barədə
- “Bank olmayan kredit təşkilatları haqqında” AR Qanununda dəyişiklik edilməsi barədə
- Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında
- "Bələdiyyələrin statusu haqqında"AR Qanununda dəyişiklik edilməsi barədə

**Fərman**

- “Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında” Qanunun tətbiqi və “Cinayət Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Qanunun tətbiq edilməsi barədə” Prezidentin 2000-ci il 8 fevral tarixli 278 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında
- “Dövlət satınalmaları haqqında” Qanunun tətbiqi və “Dövlət satınalmaları haqqında” Qanunun tətbiq edilməsi barədə” 2002-ci il 29 yanvar tarixli 668 nömrəli Fərmanda dəyişiklik edilməsi haqqında
- “Arbitraj haqqında” Azərbaycan Respublikası Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 391 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə
- “İnzibati Cərimələrin Mərkəzi Avtomatlaşdırılmış Lövhəsi” informasiya sistemi haqqında Əsasnamə”nin təsdiq edilməsi barədə

**Qərar**

- Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanının qəbul edilməsi ilə əlaqədar normativ hüquqi aktların kolliziyasının aradan qaldırılması məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi və “Azərbaycan Respublikası Nazirlər Kabinetinin və mərkəzi icra hakimiyyəti orqanlarının hazırladıqları normativ hüquqi aktların layihələrinin “Elektron hökumət” portalında yerləşdirilməsi Qaydaları”nın təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 25 iyun tarixli 142 nömrəli qərarının ləğv edilməsi haqqında

Eləcə də, “Normativ hüquqi aktlar haqqında” Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə Konstitusiya Qanunundan irəli gələrək “İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə” layihəsi hazırlanmış və Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmişdir.

Həmçinin Mərkəz tərəfindən Nizamnaməsinin 3.1.1-ci yarımbəndinə uyğun olaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti, Azərbaycan Respublikasının Diasporla iş üzrə Dövlət Komitəsi, Azərbaycan Respublikasının Mərkəzi Bankı, Azərbaycan Respublikasının Maliyyə Nazirliyi, Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi, Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC və digər dövlət orqanları (qurumları) ilə bağlanmış müvafiq müqavilələrə əsasən onlara normativ hüquqi aktların layihələrinin hazırlanması və hüquqi ekspertizasının aparılmasında xidmətlər göstərilmişdir.

Bundan əlavə, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin müraciətinə uyğun olaraq, "Azərbaycan Respublikası Hökuməti ilə Qırğız Respublikasının Nazirlər Kabineti arasında İssık-Kul gölünün sahilində mehmanxana tikintisi üzrə investisiya qoyuluşu haqqında" Saziş layihəsi hazırlanmış və Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinə təqdim edilmişdir. Eyni zamanda, Mərkəzin əməkdaşları həmin beynəlxalq sazişin Qırğız tərəfi ilə müzakirəsində iştirak etmiş və sazişin müddəalarının qarşı tərəflə razılaşdırılmasında öz töhfəsini vermişdir.




Ümumilikdə, hesabat dövrü ərzində 175 qanun layihəsinin, 57 fərman layihəsinin, 7 Nazirlər Kabinetinin qərar layihəsinin hüquqi ekspertizası keçirilmişdir. Həmçinin, Mərkəz tərəfindən 22 qanun layihəsi (44 qanuna dəyişiklik nəzərdə tutan), 18 fərman layihəsi (41 fərmana dəyişiklik nəzərdə tutan) və 1 Nazirlər Kabinetinin qərar layihəsi (o cümlədən Nazirlər Kabinetinin qərarı ilə təsdiqlənməsi nəzərdə tutulan 3 publik hüquqi şəxslərin nizamnamələri) hazırlanmışdır. Eyni zamanda, qeyd olunan normativ hüquqi akt layihələrinin əsaslandırma sənədlərinin təkmilləşdirilməsi, bəzi hallarda isə yenidən hazırlanması təmin edilmişdir.



*<u>Qanunvericilik təşəbbüsü qaydasında görülmüş işlər üzrə</u>*

İctimai münasibətlərin müxtəlif sahələri üzrə hüquqi tənzimlənmənin təkmilləşdirilməsi, hüquqi boşluqların və kolliziyaların aradan qaldırılması məqsədi ilə Mərkəz tərəfindən ayrı-ayrı aktual sahələr üzrə mövcud hüquqi baza təhlil edilmiş və müvafiq sahədə qabaqcıl beynəlxalq təcrübə və beynəlxalq konvensiyaların tələbləri nəzərə alınmaqla qanunvericiliyin inkişaf etdirilməsi üçün təkliflər hazırlanmışdır.

Eyni zamanda, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin qərarlarından irəli gələn tövsiyələrin icra vəziyyəti araşdırılmış və icra olunmamış tövsiyələrin implementasiyası ilə bağlı təkliflərin hazırlanması təmin edilmişdir.

Mərkəz tərəfindən aparılmış hüquqi tədqiqatlar və təhlillər zamanı 1995-ci il 13 iyun tarixində qəbul edilmiş “Azərbaycan Respublikasının beynəlxalq müqavilələrinin bağlanması, icrası və ləğv edilməsi qaydaları haqqında” Azərbaycan Respublikası Qanununda 1969-cu il 23 may tarixli “Müqavilələr Hüququ haqqında Vyana Konvensiyası” ilə uyğunluq təşkil etməyən bəzi müddəaların və hüquqi boşluqların mövcud olduğu aşkar edilmişdir. Eyni zamanda Azərbaycan Respublikası 2017-ci il 2 oktyabr tarixli 777-VQ nömrəli Qanunla 1969-cu il 23 may tarixli “Müqavilələr Hüququ haqqında Vyana Konvensiyası”na qoşulduqdan sonra həmin Qanunun tətbiqi haqqında Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 21 noyabr tarixli 3399 nömrəli Sərəncamının 1-ci hissəsi ilə Nazirlər Kabinetinə dörd ay müddətində “Beynəlxalq müqavilələr haqqında” Azərbaycan Respublikası Qanununun layihəsinin hazırlanması tapşırılsa da, indiyədək müvafiq tapşırığın icra edilmədiyi müəyyən edilmişdir.

Qeyd olunanları nəzərə alaraq, Mərkəz tərəfindən Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına müraciət olunaraq beynəlxalq müqavilələrlə bağlı münasibətlərin tənzimlənməsi sahəsində mövcud problemlərin həlli və bu sahəni tənzimləyən normativ hüquqi bazanın təkmilləşdirilməsi, o cümlədən Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 21 noyabr tarixli 3399 nömrəli Sərəncamının 1-ci hissəsində nəzərdə tutulmuş tapşırığın icrasına dəstək məqsədilə “Beynəlxalq müqavilələr haqqında” Azərbaycan Respublikasının Qanun layihəsinin hazırlanmasına təşəbbüs irəli sürülmüş, bu təşəbbüs müsbət dəyərləndirilmişdir.

Bundan sonra Mərkəz tərəfindən “Beynəlxalq müqavilələr haqqında” qanun layihəsinin aidiyyəti dövlət orqanlarının məsul əməkdaşları ilə ilkin müzakirəsi aparılmış, təkliflər öyrənilmişdir. Layihə tərəfimizdən beynəlxalq sənədlər, xarici ölkələrin təcrübəsi, habelə xarici ekspertində rəyləri nəzərə alınmaqla təkmilləşdirilərək aidiyyəti dövlət orqanlarına rəy və təkliflərin bildirilməsi üçün göndərilmişdir.

Qeyd olunanlardan başqa Müşahidə Şurasının 2023-cü il 22 iyun tarixli qərarı ilə təsdiq edilmiş 2023-cü il üzrə “Normativ hüquqi bazanın təkmilləşdirilməsi ilə bağlı Tədbirlər Planı”nda nəzərdə tutulmuş işlərin icrası çərçivəsində Mərkəz tərəfindən *cəza sistemindən islah işləri növündə cəzaların çıxarılması ilə bağlı* “Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında" qanun layihəsi (həmçinin, həmin layihənin uyğunluğunun təmin edilməsi üçün bir sıra digər qanun və fərman layihələri), *nəqliyyat vasitəsini idarə etmək hüququna dair etibarnamə tələbinin ləğv edilməsi ilə bağlı* “Yol hərəkəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” qanun layihəsi, “Azərbaycan Respublikasının Mülki Məcəlləsində, Vergi Məcəlləsində, İnzibati Xətalar Məcəlləsində, “Notariat haqqında”, “Dövlət rüsumu haqqında”, “İpoteka haqqında” və “İcbari sığortalar haqqında” qanunlarda dəyişiklik edilməsi barədə” qanun layihəsi və “Azərbaycan

Respublikasının Mülki Məcəlləsində, Vergi Məcəlləsində, İnzibati Xətalar Məcəlləsində, “Notariat haqqında”, “Dövlət rüsumu haqqında”, “İpoteka haqqında” və “İcbari sığortalar haqqında” qanunlarda dəyişiklik edilməsi barədə” Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında” fərman layihəsi, *bəzi kateqoriya şəxslərin məhkəməyə verilən iddia ərizələri, digər ərizələr və şikayətlər üzrə dövlət rüsumu ödəməkdən azad edilməsi ilə bağlı* “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” qanun layihəsi, *yaşayış sahəsinə köçmək üçün əsas verən sənədi olmayan vətəndaşların qeydiyyata alınması ilə əlaqədar məsələlərin tənzimlənməsi ilə bağlı* “Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” qanun layihəsi, “Notariat haqqında” və “Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında” Qanunun tətbiqi haqqında Əsasnamənin təsdiq edilməsi barədə” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi haqqında” qanun layihəsi və “Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında” Qanunda dəyişiklik edilməsi barədə” Qanunun tətbiqi və onun qəbul edilməsi ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında” fərman layihəsi, *iqtisadi fəaliyyət sahəsində bəzi cinayətlərin törədilməsinə görə hüquqi şəxslərə cinayət-hüquqi tədbirlərin tətbiqi ilə bağlı* “Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında” qanun layihəsi, *urbisid əməlinin kriminallaşdırılması ilə bağlı* “Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında” qanun layihəsi və *vəkil yardımından istifadə edən şəxs ilə bağlanmış müqaviləyə əsasən işin nəticəsində əldə olunan gəlirdən vəkilin müəyyən faiz nisbətində haqq ("uğur haqqı") alması ilə bağlı* “Vəkillər və vəkillik fəaliyyəti barədə” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi haqqında” qanun layihəsi hazırlanmışdır.

## QANUNVERİCİLİK TƏŞƏBBÜSÜ

- Mərkəz tərəfindən ayrı-ayrı aktual sahələr üzrə mövcud hüquqi baza təhlil edilmişdir
- Qabaqcıl beynəlxalq təcrübə və beynəlxalq konvensiyaların tələbləri nəzərə alınmaqla qanunvericiliyin inkişaf etdirilməsi üçün təkliflər hazırlanmışdır
- Konstitusiya Məhkəməsinin qərarlarından irəli gələn tövsiyələrin implementasiyası ilə bağlı təkliflər hazırlanmışdır
- Azərbaycan Respublikasının Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiyasının tərkibində “Azərbaycan Respublikası Mülki Məcəlləsinin təkmilləşdirilməsi” işçi qrup yaradılmışdır

*Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiya çərçivəsində fəaliyyət*

“Azərbaycan Respublikasında biznes mühitinin əlverişliliyinin artırılması və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 13 iyul tarixli 2199 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 13 iyul tarixli 3965 nömrəli Sərəncamına əsasən Mərkəzin İcraçı direktoru Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın üzvlərinin sırasına daxil edilmişdir.

Həmçinin Mərkəzin əməkdaşları qeyd edilən Komissiyanın tərkibində yaradılmış 10 işçi qrupun üzvləri qismində iştirak etməklə həmin işçi qrupların fəaliyyətinə öz töhfələrini vermişdirlər.

Eyni zamanda, Mərkəzin təşəbbüsü ilə Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiyanın tərkibində “Azərbaycan Respublikası Mülki Məcəlləsinin təkmilləşdirilməsi” işçi qrupu yaradılmışdır. İşçi qrupun fəaliyyətinə rəhbərliyin həyata keçirilməsi Mərkəzin İcraçı direktoruna həvalə olunmuş. İşçi qrupun tərkibinə dövlət orqanlarının (qurumlarının), təhsil müəssisələrinin, aparıcı hüquq şirkətlərinin, qeyri-hökumət təşkilatlarının nümayəndələri, habelə müstəqil ekspertlər və vəkillər (ümumilikdə 44 üzv) daxil edilmişdir. Ötən ilin 15 dekabr tarixində həmin işçi qrupun ilk iclası keçirilmiş, həmin iclasda işçi qrupun fəaliyyət planı müzakirə olunmuş, habelə 2024-cü ilin sonunadək Mülki Məcəllənin təkmilləşdirilməsi üzrə konsepsiya sənədinin hazırlanması qərara alınmışdır.

*Mərkəz tərəfindən hazırlanmış hüquqi arayış və rəylər*

Hesabat dövründə Mərkəz tərəfindən dövlət orqanlarının (qurumlarının) müraciəti əsasında hüququn müxtəlif sahələri üzrə hüquqi tədqiqatların aparılması və rəylərin verilməsi sahəsində də işlərin görülməsi davam etdirilmişdir. Belə ki, Mərkəz tərəfindən Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinin sorğuları üzrə (i) “F.Nəcəfovanın şikayəti üzrə AR Ali Məhkəməsinin Mülki Kollegiyasının 18 noyabr 2021-ci il tarixli qərarının AR Konstitusiyasına və qanunlarına uyğunluğunun yoxlanılmasına dair”, (ii) “Azərbaycan Respublikası MM-in 2.3 və 882-ci maddələrinin, Azərbaycan Respublikası ƏM-in 2-ci maddəsinin 3-cü hissəsinin həmin Məcəllənin 203-cü maddəsi ilə əlaqəli şəkildə şərh edilməsinə dair”, (iii) “AR Konstitusiyasının 26 və 61-ci maddələri baxımından AR CPM-nin 92.16.3-cü maddəsində nəzərdə tutulan “müdafiəçinin cinayət prosesində iştirakını istisna edən hallar” müddəasının əlaqəli şəkildə şərh edilməsinə dair”, (iv) “Vətəndaş T.Axundovun və digərlərinin Konstitusiya Məhkəməsinə şikayəti ilə bağlı”, (v) “Azərbaycan Respublikası Əmək Məcəlləsinin 3-cü maddəsinin 1-ci və 3-cü hissələrinin və Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 49.1, 50.1 və 50.4-cü maddələrinin əlaqəli şəkildə şərh edilməsinə dair” (vi) “Azərbaycan Respublikası Mülki Məcəlləsinin 1246 və 1273-1-ci maddələrinin Azərbaycan Respublikası Konstitusiyasının 29-cu maddəsinin VII hissəsinə uyğunluğunun yoxlanılmasına dair” konstitusiya işləri ilə əlaqədar müvafiq rəylərin verilməsi təmin edilmişdir.

## HÜQUQİ ARAYIŞ VƏ RƏYLƏR

Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinin 4 sorğusu üzrə müvafiq rəylər hazırlanaraq təqdim edilmişdir

Azərbaycan Respublikası Prezidentinin Administrasiyasından Mərkəzə daxil olmuş fiziki və hüquqi şəxslərin müraciətləri əsasında rəylərin verilməsi təmin edilmişdir

Müxtəlif qanun layihələri və hüquqi məsələlərlə bağlı xarici təcrübəyə dair müvafiq hüquqi arayışların hazırlanması təmin edilmişdir

Həmçinin, Mərkəz tərəfindən İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin müraciətinə əsasən “Qiymətləri dövlət tərəfindən tənzimlənən xidmətlərlə bağlı təbii inhisar subyekti tərəfindən fərqli tariflərin müəyyən edilməsinin mümkünlüyünə, habelə “Sanitariya Epidemioloji Xidmətlər” Məhdud Məsuliyyətli Cəmiyyətinin Nazirlər Kabinetinin 2007-ci il 28 dekabr tarixli 213 nömrəli Qərarı ilə təsdiq edilmiş “Tibbi tullantıların idarə olunmasına dair Tələblər” üzrə təkliflərin məqsədəuyğunluğuna dair müvafiq rəylər hazırlanaraq aidiyyəti üzrə təqdim edilmişdir.

Eyni zamanda, Azərbaycan Respublikası Prezidentinin Administrasiyasından Mərkəzə daxil olmuş fiziki və hüquqi şəxslərin müraciətləri əsasında “Mirasda məcburi payla bağlı qanunvericilik normalarının zamana görə tətbiq olunması”, icra qurumlarının fəaliyyəti ilə bağlı mülki prosessual qanunvericiliyin bəzi müddəalarının təkmilləşdirilməsi və digər məsələlərlə əlaqədar rəylərin verilməsi təmin edilmişdir.

Bundan başqa, “İcra haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə”, “Reproduktiv sağlamlığın qorunması haqqında” qanun layihələri ilə bağlı xarici ölkələrin təcrübəsinə, xarici ölkələrdə sərxoş vəziyyətdə nəqliyyat vasitəsini idarə etmə hesab edilən alkoqol promil limitlərinə, əcnəbilər tərəfindən Azərbaycan Respublikasının vətəndaşı olan uşağın övladlığa götürülməsinə mane olan hallara, xarici ölkələrin Konstitusiya Məhkəməsi hakimlərinin səlahiyyət müddətlərinə, Almaniya təcrübəsində biznes palatalarına məcburi üzvlüyün qanuniliyinə, “Şəhid” hesab edilən şəxslərin dairəsini müəyyən edən Türkiyə Respublikasının qanunvericiliyinə dair və digər məsələlərlə bağlı müvafiq arayışların hazırlanması təmin edilmişdir.

*<u>Normayaratma və hüquq normalarının tətbiqi sahəsində keçirilmiş təlimlər üzrə</u>*

Mərkəz tərəfindən ötən ildə Nizamnaməsinin 3.1.10-cu və 3.1.11-ci yarımbəndlərinə müvafiq olaraq dövlət orqanlarının (qurumlarının) hüquq sahəsində fəaliyyət göstərən əməkdaşlarının hüquqi biliklərinin və təcrübələrinin artırılması üçün normayaratma fəaliyyəti və hüquq normalarının tətbiqi sahəsində 10 təlim keçirilmişdir. Təlimlərdə mərkəzi icra hakimiyyəti, yerli icra hakimiyyəti və digər dövlət orqanlarından (qurumlarından) ümumilikdə 130 nümayəndə iştirak etmişdir.

Beş gün davam edən hər təlimdə Mərkəz və onun funksiyaları, normayaratma fəaliyyətinin əsas problemləri, hüquqi aktların növləri və qəbul edilmə xüsusiyyətləri, normativ hüquqi aktların kolliziyası, qanunvericilikdə boşluqlar və onların aradan qaldırılma üsulları, hüquqi aktların layihələrinin hazırlanması və normayaratma orqanına təqdim edilməsi, normayaratma texnikası və normativ hüquqi akt layihəsinin hazırlanmasına dair ümumi tələblər, hüquqi akt layihəsinin strukturunun xüsusiyyətləri, normativ hüquqi akt layihəsinin məcburi hüquqi ekspertizasının keçirilmə qaydaları və nəticələrinin rəsmiləşdirilməsi, normativ hüquqi aktların (onların layihələrinin) sui-istifadəyə məruz qalmasına dair ekspertizasının keçirilmə qaydaları və nəticələrinin rəsmiləşdirilməsi, normativ hüquqi aktda dəyişiklik edilməsini və normativ hüquqi aktın (onun struktur elementlərinin) ləğv edilməsini nəzərdə tutan layihələrin tərtibi qaydası, normativ hüquqi aktın rəsmi dərci və qüvvəyə minməsi mövzuları tədris edilmişdir. Həmçinin, təlimin son günü iştirakçılarla normativ hüquqi aktların (layihələrinin) hüquqi ekspertizası və həmin aktlarda nöqsan və çatışmazlıqların aşkar edilməsi üzrə praktiki məşğələ aparılmışdır.






Eyni zamanda qeyd edilməlidir ki, İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedentlərinin tətbiq edilməsi sahəsində dövlət orqanlarının (qurumlarının) əməkdaşları üçün təlimlərin keçirilməsi işinin təşkili məqsədilə Mərkəz tərəfindən Hüquq və İnsan Haqları İnstitutuna tapşırıqlar verilmiş, İnstitut tərəfindən isə öz növbəsində bu istiqamətdə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin bir sıra polis idarələrində və şöbələrində 188 müstəntiq və təhqiqatçı üçün İnsan Hüquqları üzrə Avropa Konvensiyasının 5-ci maddəsi üzrə təlimlər keçirilmiş, habelə yerli icra hakimiyyəti orqanlarının 211 əməkdaşı üçün "Vətəndaşların müraciətlərinə baxılması", "Dövlət qulluğu və korrupsiya", "Sosial mediada məsuliyyət" və "Yerli icra hakimiyyəti orqanlarının QHT-lərlə əməkdaşlığının perspektivləri" kimi mövzularda təlimlərin keçirilməsi təmin edilmişdir.

*Normayaratma fəaliyyətinin keyfiyyətinin yüksəldilməsi məqsədilə hazırlanan materiallar*

Ötən il ərzində Mərkəz tərəfindən "Normativ hüquqi aktın qəbul edilməsi zərurətinin əsaslandırılması sənədinin tərtib edilməsi Qaydaları"nın hazırlanması üzrə işlər tamamlanmış və müvafiq layihə təsdiq edilməsi üçün Müşahidə Şurasına təqdim edilmişdir.

Həmçinin, hesabat dövrü ərzində dövlət orqanları (qurumları) üçün normayaratma fəaliyyəti və hüquq normalarının tətbiqi sahəsində təlimlərin keçirilməsi məqsədilə Mərkəzin əməkdaşları tərəfindən müvafiq təlim materiallarının və təqdimatların hazırlanması təmin edilmişdir.




Eyni zamanda Mərkəz və Hüquq və İnsan Haqları İnstitutu tərəfindən normativ hüquqi akt layihələrinin insan hüquqları baxımından təhlilinin və ekspertizasının keyfiyyətinin yüksəldilməsi məqsədilə Mərkəzdə insan hüquqları ekspertizası qaydalarının hazırlanmasına başlanılmışdır. Təlimatın hazırlanması zamanı BMT-nin İnsan Hüquqlarının müdafiəsi mexanizmləri çərçivəsində Azərbaycan Respublikasına ünvanlanmış tövsiyələri, BMT-nın aidiyyəti qurumları tərəfindən hazırlanmış nəşrlər, bələdçilər, hesabatlar, habelə Avropa Şurasının İnsan Hüquqlarının müdafiəsi mexanizmləri çərçivəsində Azərbaycana ünvanlanmış tövsiyələr (o cümlədən AİHM-nin qərarlarından irəli gələn tələblər) və İnsan Hüquqları sahəsində yerli qurumların tövsiyələri (məsələn, Ombudsmanın məruzələri və hesabatları) əsas götürülməsi nəzərdə tutulmuşdur.

*Elmi-praktiki kommentariyaların hazırlanması üzrə*

Mərkəzin Nizamnaməsinə uyğun olaraq hüquqi aktların elmi-praktiki kommentariyalarının hazırlanması istiqamətində də tədbirlər görülmüşdür. Belə ki, Mərkəz tərəfindən bu sahədə fəaliyyətinin daha səmərəli təşkili məqsədilə “Normativ hüquqi aktların elmi-praktiki kommentariyalarının hazırlanmasına dair Təlimat” hazırlanmışdır.

Həmçinin, Mərkəzin tapşırığı ilə Hüquq və İnsan Haqları İnstitutu tərəfindən “Publik hüquqi şəxslər haqqında” Azərbaycan Respublikasının Qanununun kommentariyasının ilkin layihəsinin hazırlanması təmin edilmişdir. Hal-hazırda həmin layihə üzərində Mərkəz tərəfindən təkmilləşdirilmə işləri aparılır.

*Hüquqi tərcümə işinin təşkili üzrə*

Hesabat dövrü ərzində Mərkəz tərəfindən peşəkar hüquqi tərcümə işinin səmərəli təşkil edilməsi diqqətdə saxlanılmış, bu məqsədlə may-iyun aylarında Mərkəzin ingilis dilini yüksək səviyyədə bilən mütəxəssisləri tərəfindən Hüquq və İnsan Haqları İnstitutunun tərcüməçiləri üçün “Hüquqi tərcümə” mövzusunda intensiv təlimlər keçirilmişdir.

Eyni zamanda, hesabat dövründə Mərkəz tərəfindən “Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzinin yaradılması və fəaliyyətinin təmin edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 19 may tarixli 1685 nömrəli Fərmanı və həmin Fərmanla təsdiq edilmiş Mərkəzin Nizamnaməsi ingilis və rus dillərinə tərcümə edilmiş, habelə Mərkəzin tapşırığı ilə Hüquq və İnsan Haqları İnstitutu tərəfindən “Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikası Konstitusiya Qanununun, “Publik hüquqi şəxslər haqqında” Azərbaycan Respublikasının Qanununun azərbaycan dilindən ingilis dilinə və "Xarici arbitraj qərarlarının tanınması və icrası haqqında" 1958-ci il 10 iyun tarixli Nyu-York Konvensiyasının ingilis dilindən azərbaycan dilinə tərcümə edilməsi təmin edilmişdir.




*Mərkəzin əməkdaşlarının bilik və bacarıqlarının təkmilləşdirilməsi üzrə*

Mərkəzin əməkdaşlarının peşəkarlıq səviyyəsinin yüksəldilməsi məqsədi ilə beynəlxalq ekspertlərin səfərləri, mütəxəssis missiyaları, ölkə daxilində və xaricində ezamiyyətlər, təcrübə mübadiləsi təşkil edilməklə belə tədbirlərin mütəmadiliyinə xüsusi diqqət yetirilmişdir. Bu və digər məqsədlərlə beynəlxalq və regional təşkilatlarla əməkdaşlığın qurulması istiqamətində addımlar atılmış, yerli qurumlarla əməkdaşlıq perspektivləri barədə müzakirələr aparılmış və birgə tədbirlər həyata keçirilmişdir.



Belə ki, Mərkəzin fəaliyyət istiqamətləri ilə oxşarlıq təşkil edən xarici ölkələrin müvafiq qurumlarının statusu, funksiyaları araşdırılaraq onlarla mümkün əməkdaşlıq və texniki dəstək perspektivləri barədə müraciətlər edilmişdir.Ötən ilin 3-5 may tarixlərində Mərkəzin, Hüquq və İnsan Haqları İnstitutunun, Vəkillər Kollegiyasının və Avropa Şurasının Bakı Ofisinin birgə təşkilatçılığı ilə xarici və yerli ekspertlər tərəfindən “Avropa Məhkəməsi qərarlarının Azərbaycan tərəfindən icrasının gücləndirilməsinə dəstək layihəsi” çərçivəsində “İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında” Konvensiyanın 3, 5 və 6-cı maddələrinə dair” təlim keçirilmişdir. Təlimdə Mərkəzin və İnstitutun mütəxəssisləri də daxil olmaqla, müxtəlif dövlət orqanlarının (qurumlarının) əməkdaşları və hüquq sahəsi üzrə peşəkarlar iştirak etmişdir.




Həmçinin, 2023-cü ilin 15-17 may tarixlərində TAIEX – Texniki Yardım və İnformasiya Mübadiləsi Aləti çərçivəsində Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzinin təşkilatçılığı ilə “Normayaratma qurumlarının təşkilati strukturu və idarə edilməsi” mövzusunda beynəlxalq ekspertlərin missiyası baş tutmuşdur. İspaniyanın Ədliyyə Nazirliyindən olan ekspertlərin iştirakı ilə təşkil olunmuş tədbirdə Azərbaycan Respublikası Prezidenti Administrasiyasının, Nazirlər Kabinetinin, Mərkəzin və Hüquq və İnsan Haqları İnstitutunun nümayəndələri iştirak etmişlər. Beynəlxalq ekspertlər üç gün ərzində Avropa İttifaqının hüquqi tənzimləmə siyasəti sistemi, normayaratma qurumlarının iş yükünün idarəedilməsi, normayaratma texnikası, hüquqi aktların layihələrinin hüquqi ekspertizası, qanun və digər hüquqi aktların tənzimləyici təsirinin *ex-ante* və *ex-post* qiymətləndirilməsi, hesabatların hazırlanması və digər mövzular

barədə Avropa İttifaqının, habelə İspaniya və Almaniya dövlətlərinin təcrübələri barədə geniş təqdimatlarla çıxış etmiş və praktik nümunələrlə ətraflı izahlar vermişlər. Həmçinin iştirakçılarla mövzular ətrafında qarşılıqlı müzakirələr və fikir mübadiləsi aparılmışdır.

Hesabat dövründə Mərkəzin iki əməkdaşı (Xüsusi hüququn ekspertizası şöbəsinin müdiri və Qanunvericilik təşəbbüsləri və monitorinq şöbəsinin aparıcı mütəxəssisi) Koreya Beynəlxalq Əməkdaşlıq Agentliyi (KOICA) tərəfindən təşkil olunmuş “Rəqabət hüququ və bazar iqtisadiyyatının inkişafı” mövzusunda təlimdə iştirak etmək məqsədilə Koreyaya ezam edilmişlər. Ötən ilin 22 may - 3 iyun tarixlərində baş tutmuş bu təlim səfərində “Rəqabət Hüququ və Bazar İqtisadiyyatının İnkişafı” mövzusunda koreyalı mütəxəssislərin mühazirələri dinlənilmiş, müxtəlif dövlət orqanlarına, o cümlədən Koreya Parlamentinə (National Assembly), rəqabət orqanına (Fair Trade Commission), istehlakçıların müdafiəsini həyata keçirən orqana (Consumer Protection Agency), İqtisadiyyat, Humanitar və Sosial Elmlər üzrə Milli Tədqiqat Şurasına (National Research Council for Economic, Humanities and Social Sciences) səfərlər edilmiş, həmin qurumların fəaliyyəti barədə ətraflı məlumat əldə etmişlər. Həmçinin, 30.05.2023-cü ildə Mərkəzin əməkdaşları Koreyanın paytaxtı Seul şəhərində Azərbaycan Respublikasının Koreya Respublikasındakı Səfirliyi və Azərbaycan Respublikasının Diasporla iş üzrə Dövlət Komitəsinin birgə təşkilatçılığı ilə keçirilmiş Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 100 illik yubileyi və Azərbaycan Respublikasının Müstəqillik Gününə həsr olunmuş tədbirdə iştirak etmişdirlər.

Bundan başqa, normayaratma fəaliyyəti sahəsində bilik və bacarıqlarının təkmilləşdirilməsi məqsədilə Mərkəzin 5 əməkdaşı hesabat dövrü ərzində Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına ezam edilmişdirlər.

*Mərkəzin təmsil olunduğu müxtəlif tədbirlər*

Həmçinin, hesabat dövründə Mərkəz tərəfindən yerli və xarici qurumlarla ikitərəfli münasibətlərin və əməkdaşlığın möhkəmləndirilməsi davam etdirilmiş, habelə nizamnamə ilə nəzərdə tutulmuş hüquq və vəzifələrin həyata keçirilməsi istiqamətində bir sıra digər işlər də görülmüşdür.

Belə ki, keçən dövr ərzində Mərkəzin rəhbərliyi bir sıra dövlət orqanlarının, o cümlədən Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin, Baş Prokurorluğun, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin, İnsan Hüquqları üzrə Müvəkkilin (Ombudsmanın) və digər dövlət orqanları (qurumları) tərəfindən keçirilən tədbirlərdə iştirak etmiş, məruzə ilə çıxış etmişdir.





Ötən ilin 17 fevral tarixində Mərkəzin və Hüquq və İnsan Haqları İnstitutunun rəhbərliyi tərəfindən Rusiya Federasiyasının Hökuməti yanında Qanunvericilik və Müqayisəli Hüquqşünaslıq İnstitutunun direktoru akademik Taliya Xabriyevanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə işgüzar görüş keçirilmişdir. Görüş zamanı qonaqlara Mərkəzin və İnstitutun əsas fəaliyyət istiqamətləri haqqında ətraflı məlumat verilmiş, qurumlar arasında əməkdaşlıq imkanları təhlil edilmiş və təcrübə mübadiləsi aparılmışdır.

Bundan başqa, keçən ilin 24 və 31 may tarixlərində Dünya Bankının və Asiya İnkişaf Bankının Azərbaycan Respublikasındakı nümayəndələri ilə Mərkəzin nümayəndələri arasında görüşlər keçirilmiş, görüşdə Mərkəz və onun fəaliyyəti barədə ətraflı məlumat verilmiş, Mərkəzlə həmin təşkilatlar arasında əməkdaşlığın inkişaf etdirilməsi istiqamətində geniş müzakirələr aparılmışdır. Görüşdə, həmçinin hüquqi aktlardan, elmi-hüquqi materiallardan ibarət olan çoxfunksiyalı axtarış imkanını nəzərdə tutan elektron informasiya sisteminin və məhkəmə qərarları üzrə axtarış sisteminin yaradılması məqsədilə texniki dəstək perspektivləri barədə əməkdaşlıq imkanları müzakirə edilmişdir.

Bundan əlavə, hesabat ilinin 12-13 iyun tarixlərində Mərkəzin Qanunvericilik təşəbbüsləri və monitorinq şöbəsinin baş mütəxəssisi Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Azərbaycan Notariat Palatası və Almaniya Federal Notariat Palatasının birgə təşkilatçılığı ilə “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə barədə qanunvericiliyin notariat praktikasında tətbiqi məsələləri” mövzusunda keçirilmiş konfransda iştirak etmişdir. Konfransda, həmçinin Azərbaycan Respublikası Milli Məclisinin, Azərbaycan Respublikası Ali Məhkəməsinin, Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin, həmçinin qeyri-hökümət təşkilatlarının, elmi-tədqiqat müəssisələrinin nümayəndələri, habelə dövlət notariusları və xüsusi notariuslar iştirak etmişdirlər. Həmin konfransın gedişində Beynəlxalq Notariat İttifaqının Beynəlxalq Notarial Əməkdaşlığı Komissiyasının Prezidenti, Fəxri notarius, Almaniya Federal Notariat Palatasının beynəlxalq münasibətlər üzrə baş nümayəndəsi Rixard Bok və Beynəlxalq Notariat İttifaqının “Çirkli pulların yuyulmasına qarşı mübarizə üzrə” eksperti Monika Thull “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizədə notariusların rolu”, həmçinin “Almaniyada notariusların və reyestr xidmətlərinin çirkli pulların

yayılmasının qarşısının alınması mövzularında məruzə ilə çıxış etmiş və qeyd edilən mövzular çərçivəsində fikir mübadiləsi aparılmışdır.

Bununla yanaşı 2023-cü il iyunun 16-da Azərbaycan Respublikasının Ali Məhkəməsində “Mülki qanunvericiliyin vərəsəliklə bağlı müddəalarının tətbiqi təcrübəsində mövcud problemlər: mirasın qəbulu və mirasdan imtina institutları” mövzusunda keçirilmiş dəyirmi masada Mərkəzin Publik hüququn ekspertizası şöbəsinin baş mütəxəssisi iştirak etmişdir. Həmin dəyirmi masada mirasın qəbulu və mirasdan imtina institutu ilə bağlı mövcud məhkəmə təcrübəsi, qanunvericilikdəki problemlər və onların həlli yolları müzakirə edilmişdir.



Bundan başqa ötən ilin 13 iyul tarixində Mərkəzin əməkdaşları ilə Avstraliya Parlamentinin İnsan Hüquqları Komitəsi arasında ilk onlayn görüş keçirilmiş və adıçəkilən qurumlar arasında gələcək əməkdaşlıq imkanları müzakirə edilmişdir.

Həmçinin, Mərkəzin Qanunvericilik təşəbbüsləri və monitorinq şöbəsinin baş mütəxəssisi 2023-cü ilin 20 noyabr tarixində keçirilmiş “Avropa Məhkəməsi qərarlarının Azərbaycan tərəfindən icrasının təkmilləşdirilməsinə dəstək” layihəsi çərçivəsində İşçi Qrupun Avropa İnsan Hüquqları Məhkəməsinin Qətnamə və Qərarlarının Azərbaycan Respublikası Tərəfindən İcra Olunması üzrə Milli İcra Strategiyası və Fəaliyyət Planı Mövzusunda keçirilən iclasda iştirak etmişdir.

2023-cü ilin 15 dekabr tarixində tarixində Mərkəzin Qanunvericilik təşəbbüsləri və monitorinq şöbəsinin müdiri Avropa Şurasının “Avropa Məhkəməsi qərarlarının Azərbaycan tərəfindən icrasının təkmilləşdirilməsinə dəstək” layihəsi çərçivəsində “İşçi Qrupun Avropa İnsan Hüquqları Məhkəməsinin (AİHM) qətnamə və qərarlarının Azərbaycan Respublikası tərəfindən icra olunması üzrə Milli İcra Strategiyası və Fəaliyyət Planı” mövzusunda iclasda iştirak etmişdir. İclasda həmçinin Azərbaycan Respublikası Milli Məclisinin, Azərbaycan Respublikası Ali Məhkəməsinin, Azərbaycan Respublikası Baş Prokurorluğunun, Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin, Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatının, Avropa Şurasının Avropa İnsan Hüquqları Məhkəməsi Qərarlarının İcrası Departamentinin nümayəndələri iştirak etmişlər. İclasın gedişində Avropa Şurasının Azərbaycan Respublikasındakı Ofisinin rəhbəri cənab Petr Six, Azərbaycan Respublikası Prezident Administrasiyasının Hüquq-mühafizə orqanları ilə iş şöbəsinin İnsan hüquqlarının müdafiəsi məsələləri sektorunun müdiri cənab Həbib Abdullayev və Avropa Şurası Azərbaycan və Gürcüstan üzrə şöbə rəhbəri cənab Mahir Müşteidzadə tərəfindən “Avropa İnsan Hüquqları Məhkəməsinin (AİHM) qətnamə və qərarlarının Azərbaycan Respublikası tərəfindən icra

olunması üzrə Milli İcra Strategiyası və Fəaliyyət Planı"nın məqsədləri barədə ətraflı məlumat verilmiş və mövzu çərçivəsində fikir mübadiləsi aparılmışdır.

Göstərilənlərlə yanaşı hesabat dövründə Mərkəzin əməkdaşları dövlət orqanları (qurumları) və beynəlxalq təşkilatlar tərəfindən təşkil edilmiş bir sıra digər tədbirlərdə də iştirak etmiş və həmin tədbirlərin fəaliyyətinə öz töhfəsini vermişdirlər.

*Hüquqi maarifləndirmə işinin aparılması üzrə*

Müşahidə Şurasının 2023-cü il 22 iyun tarixli qərarı ilə təsdiq edilmiş "2023-cü il üzrə hüquqi maarifləndirmə işinin aparılması ilə bağlı Tədbirlər Planı"na uyğun olaraq Mərkəz tərəfindən aşağıdakı işlərin görülməsi təmin edilmişdir. Belə ki, Mərkəzin rəsmi internet saytında "Heydər Əliyev və hüquqi islahatlar" adlı bölmə yaradılmış, burada Ümummilli Lider tərəfindən aparılan hüquqi islahatlar barədə geniş məlumat əks olunmuşdur.

Həmçinin, ötən ilin 3 noyabr tarixində Mərkəz tərəfindən Ulu Öndər Heydər Əliyevin 100 illiyinə həsr edilmiş "Ümummilli Lider Heydər Əliyevin apardığı hüquqi islahatlar və onların əhəmiyyəti" mövzusunda elmi-praktiki konfrans keçirilmişdir. Həmin tədbirdə Milli Məclisin deputatı, Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının, Konstitusiya Məhkəməsinin, Ali Məhkəmənin, Baş Prokurorluğun, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının, Ədliyyə Nazirliyi Ədliyyə Akademiyasının, Daxili İşlər Nazirliyinin və Polis Akademiyasının, Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyasının, həmçinin bir sıra dövlət qurumlarının və media subyektlərinin nümayəndələri iştirak etmişdirlər.

Konfransda Ulu Öndərin hüquq sahəsində apardığı islahatların, habelə insan hüquqlarının təmin edilməsi, müdafiəsinin gücləndirilməsi və digər sahələrdə həyata keçirdiyi islahatların əhəmiyyəti barədə çıxışlar edilmiş, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, cəza siyasətinin humanistləşdirilməsi, habelə məhkəmə sisteminin və müstəqil vəkillik təsisatının təkmilləşdirilməsi sahəsindəki töhfələri barədə məlumatlar verilmişdir.

Həmin Tədbirlər Planı çərçivəsində ötən ilin 6 dekabr tarixində Hüquq və İnsan Haqları İnstitutu (İnstitut) Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə, İnstitutun 25 illik yubileyinə və Beynəlxalq İnsan Hüquqları Gününə həsr olunmuş tədbir keçirmişdir.

Tədbirdə İnstitutun əməkdaşlarının hüququn müxtəlif sahələrinə dair yeni çapdan çıxmış kitablarının təqdimatı ilə yanaşı, İnstitutun 25 il ərzində həyata keçirdiyi fəaliyyətlər barədə də ətraflı məlumat verilmişdir. İnstitutun İdarə Heyətinin sədri Məhəmməd Quluzadə təqdimatında Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə yaradılan İnstitutda bu müddət ərzində 228 elmi işin müdafiə olunduğunu, 700-dən çox tələbə və məzunun təcrübə keçdiyini, 1500-ə yaxın kitab, dərslik və məqalənin dərc edildiyini, 150-dən çox qanuna təklif və rəylər hazırlandığını, habelə yüzlərlə şəxsin insan hüquqları ilə bağlı təlimlərə cəlb olunduğunu qeyd etmişdir.

Tədbirdə Azərbaycan Respublikası Milli Məclisinin deputatları, Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının məsul şəxsləri, BMT-nin İnkişaf Proqramının məsul nümayəndəsi, habelə digər dövlət orqanlarının (qurumlarının) nümayəndələri iştirak etmiş, Azərbaycanda insan hüquqları sahəsində aparılan islahatlar və nailiyyətlər barədə çıxışlar edilmişdir.

Həmin tədbirdə "Azərbaycanda hüquq elminin mövcud problemləri, yeni prioritetləri və perspektivləri" mövzusunda aparılan müzakirədə müxtəlif ali təhsil ocaqlarının hüquqşünas

alimləri və dövlət qurumlarının əməkdaşları hüquq elminin inkişafı ilə bağlı təkliflər səsləndirmiş, bu sahədə görüləcək işlərə dair fikir mübadiləsi aparmışlar.
Bundan başqa hüquqi maarifləndirmə şərçivəsində Mərkəzin internet səhifəsində “Tez-tez verilən suallar” (FAQ) bölməsi (http://heqt.gov.az/question-answer.php?lang=az) yaradılmış, burada vətəndaşların qanunvericilik təşəbbüsü hüququ və onların normayatma fəaliyyətinə cəlb edilməsi, vətəndaşların qəbulu və onların dövlət orqanlarına (qurumlarına) müraciəti, inzibati icraat və digər sahələrə dair suallar və cavablar əks olunmuşdur.

Ölkədə aparılan hüquqi islahatların məzmunu və mahiyyəti barədə ictimaiyyətin məlumatlandırılması məqsədilə Mərkəzin rəsmi internet saytında maarifləndirici materialların yerləşdirilməsi, habelə bu məqsədlə keçirilən tədbirlərdə Mərkəzin əməkdaşlarının iştirakı təmin edilmişdir.

Həmçinin, ali təhsil müəssisələrində hüquqşünaslıq ixtisası üzrə 3-cü və 4-cü kurs bakalavr və magistratura pilləsində təhsil alan tələbələr, həmçinin yeni məzun olmuş hüquqşünasların Mərkəzdə təcrübə proqramına cəlb edilməsi məqsədilə müsabiqə keçirilmiş və nəticədə müvəffəqiyyət qazanmış 3 nəfər namizəd təcrübə proqramına dəvət almışdır.

*Mərkəzə daxil olmuş sənəd və müraciətlər üzrə*

Hesabat dövründə mərkəzi və yerli icra hakimiyyəti orqanlarından, digər qurumlardan və vətəndaşlardan Mərkəzə 136 müraciət, ümumilikdə isə 314 sənəd daxil olmuş və bütün müraciətlər qanunvericiliyə uyğun olaraq cavablandırılmışdır.

**Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzi**